# Azərbaycan və Qazaxıstanın ali təhsil əlaqələri yeni mərhələdə




## *Emin Əmrullayev:* Qazaxıstanla təhsil sahəsində oxşar hərəkət modelindən istifadə edəcəyik

"Azərbaycan və Qazaxıstan təhsil sahəsində oxşar hərəkət modelindən istifadə edəcək. Azərbaycanla Qazaxıstan arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi vacibdir və hər iki ölkə arasında oxşar hərəkət modelinin tətbiqi qərara alınıb. Hər iki ölkənin öz milli maraqları mövcuddur və bu maraqlara əsaslanaraq, təhsil sahəsində oxşar hərəkət modelindən istifadə etməyə qərar vermişik".




## *Hafiz Paşayev:* ADA-da çalışan qazaxıstanlı müəllimlər yüksəkixtisaslı kadrlardırlar

"ADA Universitetində çalışan qazaxıstanlı müəllimlər yüksəkixtisaslı kadrlardırlar. Həmçinin hazırda ADA-da 22 qazaxıstanlı tələbə təhsil alır. Qazaxıstan universitetlərinin rektorlarını salamlamaqdan məmnunam. Ümid edirəm ki, əməkdaşlığımızı daha da gücləndirmək imkanımız olacaq. ADA Universitetində çalışan qazaxıstanlı müəllimlər və təhsil alan qazax tələbələr universitetimizin dəyərli üzvləridirlər".




## *Sayasat Nurbek:* Ali təhsil və texnologiya sahəsində yeni əməkdaşlıq imkanları açılır

"Azərbaycan və Qazaxıstan arasında ali təhsil və texnologiya sahəsində yeni əməkdaşlıq imkanları açılır. Qazaxıstan və Azərbaycanın qardaşlıq münasibətləri təhsil və elmi əməkdaşlıqda da öz əksini tapmalıdır. Biz akademik və tədqiqat sahələrində yeni imkanlar yaratmaq üçün birgə fəaliyyətimizi genişləndiririk. Rəqəmsal infrastruktura və innovativ strategiyalara diqqət ayıraraq, iki ölkə arasında əlaqələri daha da möhkəmləndirməyi planlaşdırırıq".

## Azərbaycan və Qazaxıstanın ali təhsil imkanları müzakirə edilib





**Martın 4-də ADA Universitetində Azərbaycan və Qazaxıstan arasında ali təhsildə əməkdaşlığın genişləndirilməsinə həsr olunmuş "dəyirmi masa" təşkil edilib.**

"Dəyirmi masa"da elm və təhsil naziri Emin Əmrullayev, Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek və hər iki ölkənin qabaqcıl universitetlərinin rəhbər heyəti iştirak ediblər.

"Dəyirmi masa"da açılış nitqi ilə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev tədbir iştirakçılarını salamlayıb, səfərin hər iki ölkənin ali təhsil müəssisələri arasında artan inkişafa verəcəyi töhfənin əhəmiyyətini vurğulayıb. Azərbaycan və Qazaxıstan arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edən rektor bildirib ki, hər iki ölkə müstəqilliyinin əldə olunmasının ilk illərindən təhsilə diqqəti artırıb, çünki təhsil olmadan inkişaf yoxdur. Rektor hazırda ADA Universitetində 22 qazaxıstanlı tələbənin təhsil aldığını diqqətə çatdırıb.

Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı səfiri Alim Bayel çıxışında qeyd edib ki, bu gün hər iki ölkənin təhsil sahəsində əməkdaşlığı üçün çox önəmli gündür: "İlk dəfədir ki, Bakıda Qazaxıstan universitetlərinin sərgisi açılacaq. Qazaxıstan, eləcə də Azərbaycan təhsil sahəsində islahatlar aparır. Qazaxıstanda bir sıra nüfuzlu universitetlərin filialları açılır. Biz istəyirik ki, Azərbaycan və Qazaxıstan arasında əlaqələrdə təhsil aparıcı istiqamətlərdən biri olsun. Ölkələrimiz arasında əlaqələr sürətlə inkişaf edir".

Sonra çıxış edən Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek vurğulayıb ki, bu gün bütün dünyada akademik mobillik güclənib. Qazaxıstana xaricdən gələn tələbələrin, eləcə də nüfuzlu universitetlərin filiallarının da sayı artıb. Nazir xüsusi olaraq da Azərbaycan və Qazaxıstan arasında ali təhsil sahəsində əməkdaşlığın dərinləşməsi üçün böyük imkanların olduğunu deyib. Dünyada ali təhsil sahəsində böyük bazarın formalaşdığını diqqətə çatdıran nazir hər iki ölkənin bu sahədə imkanlarını yüksək qiymətləndirib. Nazir ali təhsil müəssisələrinin transformasiyasından da danışaraq Qarabağ Universiteti ilə bağlı fikirlərini çatdırıb. Həmkarlarını cari tədris ilindən fəaliyyətə başlayan Qarabağ Universiteti ilə əməkdaşlığa səsləyib.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev tədbirin qonaqlarını salamlayıb, elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün mövcud imkanlardan danışıb.

Qazaxıstanın Lev Qumilyov adına Universitetinin rektoru Yerlan Sydykov sərginin Azərbaycan və Qazaxıstanın elm və təhsil sahəsində əməkdaşlığının güclənməsinə və inkişafına töhfələr verəcəyinə əminliyini ifadə edib. Rektor hazırda Azərbaycan universitetlərində aparılan layihələrdən danışıb.

Qazaxıstanın "Beynəlxalq Proqramlar Mərkəzi" ASC-nin İdarə Heyətinin sədri Adil Kusmanov qazaxıstanlı gənclərin xaricdə təhsilini həyata keçirən "Bolaşak" beynəlxalq təqaüdü haqqında çıxış edib. Çıxışında xaricdə təhsil sahəsində əldə olunmuş təcrübədən, xarici ali məktəblərlə əməkdaşlığın inkişafından söz açıb.

Daha sonra çıxış edən hər iki ölkənin ali təhsil müəssisələrinin rəhbərləri Azərbaycan və Qazaxıstanın ali təhsil müəssisələri arasındakı mövcud əlaqələrdən, əməkdaşlıq imkanlarından danışıblar.

"Dəyirmi masa" çərçivəsində ADA Universitetinin prorektoru, millət vəkili Fariz İsmayılzadənin moderatorluğu ilə "Azərbaycan və Qazaxıstan arasında akademik əməkdaşlığın artırılması" mövzusunda panel müzakirəsi keçirilib.

Fariz İsmayılzadənin moderatorluğu ilə "Azərbaycan və Qazaxıstan arasında ikili diplom proqramları: effektiv tətbiq və təsir strategiyaları" mövzusunda davam edən tədbirdə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Qazaxıstanın Ş.Yesenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universitetinin rektoru Berik Əhmədov, "Azərbaycan və Qazaxıstan arasında elmi əməkdaşlıq: innovasiya və qlobal tərəfdaşlığın təşviqi" mövzusunda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov, Qazaxıstanın Jubanov adına Dövlət Universitetin İdarə Heyətinin sədri rektor Laura Karabasova, "Akademik mobilliyin və mədəni əməkdaşlığın artırılması" mövzusunda Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Qazaxıstanın Milli Qadın Pedaqoji Universitetinin İdarə Heyətinin sədri, rektor Gülmira Kanay, Qazaxıstanın Almatı Energetika və Telekommunikasiya Universitetinin İdarə Heyətinin üzvü Fuad Hacıyev çıxış ediblər.

Panel müzakirəsində ölkələr arasında qarşılıqlı ikili diplom proqramlarının effektiv tətbiqi, innovasiya, elmi-tədqiqat və qarşılıqlı mübadilə proqramlarının genişləndirilməsi mövzularında fikir mübadiləsi aparılıb.

Müzakirələrdən sonra hər iki ölkənin universitetləri arasında qarşılıqlı anlaşma memorandumlarının imzalanma mərasimi keçirilib.

**Oruc MUSTAFAYEV**

## Emin Əmrullayev qazaxıstanlı həmkarı ilə görüşüb



Martın 4-də elm və təhsil naziri Emin Əmrullayev Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek ilə görüşüb. Görüş çərçivəsində Qazaxıstan Respublikası ilə ikitərəfli əməkdaşlıq, eləcə də elm və ali təhsil sahəsində inkişaf perspektivləri müzakirə edilib.

## Qazaxıstan universitetlərinin təhsil sərgisi



Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi və bir sıra universitetlərinin nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Bakı İdman Sarayında təhsil sərgisi təşkil edilib. Sərgidə Qazaxıstanın 20-dən çox ali təhsil müəssisəsi iştirak edib. Qazaxıstanda müxtəlif təhsil səviyyələri və ixtisas istiqamətləri üzrə mövcud imkanlar barədə iştirakçılara ətraflı məlumat verilib.

Sərginin əsas məqsədi Qazaxıstan universitetlərini Azərbaycan ictimaiyyətinə tanıtmaq və iki ölkə arasında təhsil sahəsində əməkdaşlığı gücləndirməkdir.

Açılış mərasimində Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək bildirib ki, Bakıda ilk dəfə Qazaxıstan ilə birgə belə bir sərgi təşkil olunur:

"Mən əminəm ki, bu sərgi Qazaxıstan və Azərbaycan təhsili arasındakı əlaqələrə müsbət təsir göstərəcək".

Daha sonra Qazaxıstanın elm və ali təhsil naziri Sayasat Nurbek çıxış edərək ölkəsinin ən nüfuzlu dövlət və özəl universitetlərinin sərgidə təmsil olunduğunu diqqətə çatdırıb:

"Biz artıq ABŞ, Böyük Britaniya, Cənubi Koreya universitetləri ilə əməkdaşlıq çərçivəsində 47 təhsil və tədqiqat müəssisəsini Qazaxıstana cəlb etməyə nail olmuşuq".

Nazir əlavə edib ki, imzalanmış ikitərəfli sazişə əsasən, gələn il 12 azərbaycanlı tələbə Qazaxıstanda tam təqaüdlə təhsil almaq imkanı qazanacaq.

Məlumat üçün bildirək ki, hazırda Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində Azərbaycan vətəndaşları Qazaxıstanda bakalavriat, magistratura və doktorantura səviyyələrində tam təqaüdlü təhsil almaq imkanına malikdirlər. Hər tədris ili çərçivəsində bu proqram vasitəsilə Azərbaycan vətəndaşları Qazaxıstanın nüfuzlu universitetlərində təhsil almaq hüququ əldə edirlər.